UOT 66:33; 66:658

# "Etilen-Polietilen" zavodunda risklərin idarə edilməsinin qiymətləndirilməsi

**D.Ə. Əmiraslanova,** i.ü.f.d.
Sumqayıt Dövlət Universiteti

**e-mail:** dilare.amiraslanova@mail.ru

**Açar sözlər:** zavod, istehsal-təsərrüfat, risk, idarə etmək, satış fəaliyyəti

**Оценка текущего состояния управления рисками на заводе "Этилен-полиэтилен"**

Д.А. Амирасланова, д.ф.э.н.
Сумгаитский государственный университет

**Ключевые слова:** завод, производственно-хозяйственный, риск, управлять, торговая деятельность.

Предприятия, работающие в современных условиях, независимо от вида деятельности и формы собственности, всегда подвержены определенным рискам. Ни одно предприятие не может работать устойчиво и эффективно, не прогнозируя риски, которые могут возникнуть в ходе его хозяйственной деятельности, и не принимая адекватных решений по их снижению и управлению ими. Управление рисками в ходе производственно-хозяйственного процесса имеет особое значение для нефтехимических предприятий нашей страны. Именно поэтому в статье раскрыто понятие риска, проанализирована структура управления заводом «Этилен-полиэтилен» и отражены пути совершенствования управления рисками на заводе.

**Evaluation of current state of risk management at "Ethylene-polyethylene" plant**

D.A. Amiraslanova, Ph. Dr. in Ec. Sc.
Sumgait State University

**Keywords:** plant, production-industrial, risk, management, trade activity.

The enterprises operating in up-to-date conditions are always underwent certain risks not depending on the activity type and property form. No enterprise can operate steady and efficiently without risk prediction, which may occur during its industrial activity and not making appropriate decisions towards their decrease and elimination. Risk management in production-industrial process has a particular significance for petrochemical enterprises of our country. Namely for this reason the paper reveals the risk conception, analyzes the management structure of "Ethylene-polyehtylene" plant and describes the ways of risk management improvement there as well.

## Giriş

Risk anlayışının məzmununun başa düşülməsinə, həmçinin onun obyektiv və subyektivliyinə müxtəlif nöqteyi-nəzərdən yanaşmalar mövcuddur. İqtisadi ədəbiyyatlarda riskin ya subyektiv, ya da obyektiv-subyektivliyinə üstünlük verilir. Onun obyektiv-subyektivliyi isə daha önəmli yer tutur. Risk müəyyən alternativlərin seçimi və onların nəticəsinin ehtimalını hesablamaqla bağlıdır. İnsanların hadisələrə psixoloji, ideoloji və s. baxışları müxtəlif olduğundan, riskin bu və ya digər səviyyəsinə də baxışları müxtəlif olur [1].

Riskin obyektiv tərəfi sosial-iqtisadi həyatın subyektləri kimi çıxış edən variantların, maddi və ideoloji münasibətlərin, bir çox təbii, sosial və texnoloji proseslərin mövcudluğu imkanını bir şərt kimi qarşıya qoyur. Riskin obyektivliyi ondan ibarətdir ki, o, fəaliyyət cəhətdən real həyatda mövcud olan və baş verən hadisələri əks etdirir. Belə ki, risk onun mövcudluğunun qəbul edilib-edilməməsindən, araşdırılmasından və ya rədd edilməsindən asılı olmayaraq mövcud olur. Riskin obyektiv-subyektivliyi onunla izah olunur ki, o, həm subyektiv xarakterli, həm də son nəticədə insanların arzu və iradəsindən asılı olmayan proseslərdən törəyir [2].

## Risklərin idarə olunmasının nəzəri əsasları

Risklərin hesablanması, proqnozlaşdırılması, habelə iş adamlarının problemli investisiya qoyuluşu təhlükəsindən qorunması onların idarə edilməsi və düzgün qiymətləndirilməsindən daha çox asılıdır. Çünki bütün təsərrüfat fəaliyyətinin nəticələri qəbul olunan qərarların icrasından asılı olur. Müəssisə bu və ya digər niyyətlərini həyata

keçirərkən əvvəlcə mövcud qanunların müddəalarının müzakirə obyekti olması haqqında düşünür. Bu da risklərin təhlükəsizliyinin saxlanılmasının ilkin və əsas şərtlərindən biridir.

Daha sonra müəyyən olunmayan, qabaqcadan görünməyən amillərin öyrənilməsi lazım gəlir. Həmin göstəricilər də qəbul olunan qərarların icrası prosesində üzləşə biləcəyi riskləri ehtiva edir. Təsərrüfat fəaliyyəti ilə bağlı qərarın təsir dairəsi, əsasən istehsal prosesinin əhatəsində özünü göstərir. Ola bilər ki, bu zaman ciddi risklərdən söhbət getməsin. Lakin təkrar istehsal, investisiya qoyuluşu, beynəlxalq təcrübə mübadiləsi kimi amillər risklərin ciddi əməl olunması və dəqiq qiymətləndirilməsi zərurətini ortaya qoyur. Bu da daha səmərəli fəaliyyət üçün seçim imkanlarının mövcudluğu şəraitində mümkündür. Beləliklə, iqtisadiyyatın inkişafı real alternativlərin sayının çoxalmasına, qərarın qəbul edilməsində müstəqilliyin artmasına gətirib çıxarır ki, bu da risklərin uçotunun dəqiqləşdirilməsi zərurətini yaradır. Həmin vəzifələr müvafiq təhlillərin aparılması qaydasında həyata keçirilir [3, 4].

### Zavodun idarə edilməsi strukturunun təhlili

Neft-kimya müəssisələrinin fəaliyyəti zamanı meydana çıxan risklərin idarə edilməsinin vəziyyətini “Etilen-Polietilen” zavodunun timsalında nəzərdən keçirək.

"Etilen-Polietilen" zavodu ölkəmizin iri neft-kimya zavodlarından biridir. SSRİ süquta uğradıqdan sonra digər keçmiş sovet respublikaları ilə iqtisadi əlaqələrin azalması, ənənəvi alqı-satqı bazarlarının itirilməsi nəticəsində zavod iqtisadi böhran vəziyyətinə düşdü. Zavodun böhran vəziyyətindən çıxarılması üçün bir sıra tədbirlərin görülməsinə baxmayaraq, gözlənilən nəticə əldə edilmədi. Maliyyə vəsaitinin çatışmazlığı zavodun tətbiq etdiyi, fiziki və mənəvi cəhətdən köhnəlmiş əsas fondların yeniləri ilə əvəzlənməsinə, istehsalı yenidən qurmağa və mövcud istehsal potensialından səmərəli istifadə etməyə imkan vermədi. Bunlarla yanaşı, ölkə iqtisadiyyatının bazar münasibətlərinə keçməsi ilə əlaqədar daxili və xarici mühitin dəyişməsi də zavodun idarə edilməsinin təşkilat qurulu-




**“Etilen-Polietilen” zavodunun idarəetmə quruluşu**

şuna təsir etmədi. İdarəetmə quruluşunun müasir tələblərə cavab verməməsi, qarşılaşdığı risklərin idarə edilməsi üçün müvafiq qərarların qəbul edilməməsi səbəbindən zavod iqtisadi böhran vəziyyətindən çıxa bilmədi. Belə ki, zavodun mövcud idarəetmə quruluşu onun qarşılaşdığı risklərin idarə edilməsini müasir tələblər səviyyəsində həyata keçirməyə imkan vermir (şəkil ) [5].

Şəkildən göründüyü kimi zavoda direktor rəhbərlik edir. Direktora bilavasitə tabedir: baş mühəndis; direktorun istehsalat işləri üzrə müavini; mühasibat uçotu və hesabat şöbəsi; məlumat hesablama mərkəzi; iqtisadi təhlil və proqnozlaşdırma şöbəsi; personal və əməkhaqqı şöbəsi; kadrlar şöbəsi; məxfi rejim və hərbi səfərbərlik şöbəsi; rəhbərlik yanında aparat; hüquq şöbəsi.

Mühasibat uçotu və hesabat şöbəsinin əsas vəzifəsi pul məbləğlərinin, əsas və dövriyyə vəsaitlərinin, əməkhaqqı uçotunun aparılması, mühasibat balansının və hesabatının tərtib edilməsi, zavodun gəlir və xərclərinin müəyyən edilməsi, istehlakçı və mal göndərənlərlə hesablaşmaların həyata keçirilməsi, zavodun kassası vasitəsilə gəlir-xərc əməliyyatlarının yerinə yetirilməsindən ibarətdir.

"Etilen-Polietilen" zavodunun idarə quruluşunun təhlili göstərir ki, zavodda risklərin idarə edilməsi ilə bilavasitə məşğul olan struktur bölmə və ya şəxs yoxdur. Ona görə də zavod uzun müddətdir ki, istehsal-təsərrüfat prosesi zamanı qarşılaşdığı risklərin lazımınca idarə olunmasını təşkil edə bilmir və bu onun fəaliyyətinə mənfi təsir göstərir. Hesab edirik ki, zavodda risklərin səmərəli idarə edilməsi üzrə qərarların qəbul edilməsi üçün idarəetmə quruluşu müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməlidir.

### Risklərin idarə edilməsi səviyyəsinin zavodun texniki-iqtisadi göstəricilərinə təsirinin qiymətləndirilməsi

Qeyd etmək lazımdır ki, "Etilen-Polietilen" zavodu yuxarıda göstərilən səbəblərdən hal-hazırda öz istehsal potensialından səmərəli istifadə edə bilmir və aşağı güclə işləmək məcburiyyətindədir. "Etilen-Polietilen" zavodunun 2012–2017-ci illərdə çeşidlər üzrə məhsul istehsalı və satışı cədvəldə verilmişdir [5].

Cədvəldən göründüyü kimi, "Etilen-Polietilen" zavodunda 2012–2017-ci illərdə məhsul istehsalı enib-qalxmalarla müşayiət olunmuşdur. Belə ki, zavodun əsas məhsulu olan polietilen istehsalı təhlil dövründə 24.97 min t (33.17 %) artmışdır. Xüsusi çəkisinə görə bu zavodda istehsal olunan məhsullardan propilen və maye piroliz qatranını göstərmək olar ki, bu məhsullar da 2012–2017-ci illərdə uyğun olaraq 11.95 min t (29.69 %) və 11.55 min t (19.77 %) artmışdır. Təhlil dövründə zavodun istehsal etdiyi ağır qatran məhsulu da 4.83 min t (39.12 %) artmışdır. Lakin istehsal olunan digər məhsulların həcmində azalma müşahidə olunur. Belə ki, 2012–2017-ci illərdə bitum-butilen fraksiyası 5.27 min t (19.20 %), saf spirt 1.95 min t (17.88 %), saf efir 0.34 min t (36.56 %) azalmışdır. "Etilen-Polietilen" zavodunda 2016-cı ildən inhibirləşmiş xlorid turşusu istehsal edilir və 2017-ci ildə əvvəlki illə müqayisədə bu məhsulun həcmi 21.3 t (6.1 %) azalmışdır.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, son illər "Etilen-Polietilen" zavodunda çeşidlər üzrə məhsul istehsalının həcminin vəziyyəti qənaətbəxş deyildir. Bunun səbəblərindən biri də zavodda risklərin idarə edilməsinin lazımi səviyyədə təşkil edilməməsidir.

### Risklərin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri

Belə ki, "Etilen-Polietilen" zavodu istehsal-təsərrüfat fəaliyyəti prosesində daim müəyyən risklərlə qarşılaşır. Qeyd etmək lazımdır ki, riskləri tamamilə aradan qaldırmaq mümkün deyil, onlar həmişə mövcuddur. Lakin risklərin idarə edil-

| Məhsulun adı və miqdarı, t | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| Polietilen | 75292.50 | 67092.10 | 76186.29 | 101035.57 | 103495.89 | - |
| Propilen | 40241.00 | 35014.00 | 40848.00 | 56493.00 | 56392.02 | 52188.66 |
| Maye piroliz qatranı | 58433.30 | 54185.00 | 55385.00 | 71770.00 | 73350.10 | 69987.20 |
| Ağır qatran | 12323.29 | 13056.77 | 15295.06 | 18723.34 | 22077.73 | 17143.80 |
| Bitum-butilen fraksiyası | 27436.00 | 20278.00 | 24815.00 | 30164.00 | 24785.00 | 22167.63 |
| Saf spirt | 10889.72 | 7400.56 | 13825.49 | 10570.32 | 12253.82 | 8942.33 |
| Saf efir | 931.00 | 571.05 | 866.61 | 685.03 | 818.23 | 590.66 |
| İnhibirləşmiş xlorid turşusu | - | - | - | - | 350.36 | 329.06 |

*Zavodun məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

məsi və aşağı salınması mümkündür.

"Etilen-Polietilen" zavodunda risklərin idarə edilməsinin təkmilləşdirilməsi üçün ilk növbədə onun idarəetmə quruluşunda müəyyən dəyişikliklərə ehtiyac var. Bunun üçün zavodun idarəetmə quruluşunda "Risklərin idarə edilməsi" bölməsinin yaradılması məqsədəuyğundur. Həmin bölmə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərə bilər:

– nəzərdə tutulan işin, fəaliyyətin layihəsinin hazırlanmasına təcrübəli tərəfdaşların, ortaqların, məsləhətçilərin cəlb edilməsi;

– fəaliyyətlə bağlı meydana çıxa biləcək əlavə problemlərin nəzərə alınması;

– bazar konyunkturasının dəyişmə meylinin proqnozlaşdırılması, təklif ediləcək əmtəəyə, xidmətə tələbatın öyrənilməsi;

– nəzərdə tutulmayan xərclərin bağlanması üçün ehtiyat vəsaitin toplanması;

– riskin tərəfdaşlar arasında bölüşdürülməsi.

Riskin tərəfdaşlar arasında bölüşdürülməsi o deməkdir ki, riskə görə cavabdehliyi layihənin elə bir üzvü üzərinə götürməlidir ki, o başqalarına nisbətən riski daha yaxşı hesablaya və nəzarətdə saxlaya bilər. Bu bölüşdürülmə maliyyə planı və müqavilə sənədləri hazırlanarkən reallaşdırılır. Riskin tərəfdaşlar arasında bölüşdürülməsi kəmiyyət və keyfiyyətcə ola bilər.

Riskin kəmiyyətcə bölüşdürülməsi qaydası həm kommersiya müəssisəsinin Nizamnaməsində, həm də tərəfdaşlarla bağladığı müqavilələrdə nəzərdə tutula bilər.

Riskin keyfiyyətcə bölüşdürülməsi – riskin dərəcəsinin qiymətləndirilməsi; strategiyanın seçilməsi; layihə dəyərinin sifarişçi və icraçı tərəfindən qiymətləndirilməsi; sifarişçi və icraçının gəlirinin qiymətləndirilməsi; layihənin xalis dəyərinin müəyyən edilməsi; sifarişçi və icraçının ümumi riskinin müəyyənləşdirilməsini nəzərdə tutur.

Riskin keyfiyyətcə bölüşdürülməsi həmçinin layihə iştirakçıları tərəfindən potensial investorların sayının artırılıb-azaldılması haqqında – riskin bir hissəsinin investorların üzərinə qoymaq istəyindən irəli gələrək qərarlar qəbul edilməsini də nəzərdə tutur. Lakin bu təcrübəli investorların cəlb edilməsinə əngəl törədə bilər. Layihə iştirakçıları investorlarla riskin bir hissəsini üzərlərinə götürmələri ilə bağlı danışıqları olduqca ehtiyatla aparmalıdırlar.

Ümumiyyətlə, riskin azaldılması üçün seçilən yollar diqqətlə öyrənilməli və məsuliyyətlə tətbiq olunmalıdır. Bu, riski idarə etmək deməkdir.

Müasir şəraitdə idarəetmə təcrübəsi olan Qərb ölkələrinin sürətli iqtisadi inkişafında gözəçarpan nailiyyətlər sübut edir ki, riskləri idarə etmək mümkündür.

"Etilen-Polietilen" zavodu öz fəaliyyəti prosesində bir-birinə uyğun gələn və gəlməyən, təkrar olunan və olunmayan çoxlu sayda müxtəlif nəticəli risklərlə qarşılaşmalı olur. Bu səbəbdən də onlar müxtəlif metod və üsulların köməyi ilə təhlil edilməli və idarə olunmalıdır. Hesab edirik ki, "Etilen-Polietilen" zavodunda risklərin idarə edilməsi zamanı aşağıdakı üsullardan istifadə olunmalıdır: riskdən qaçmaq, onu ləğv etmək, seyrəltmək (dissipasiya) və kompensasiya etmək.

Risklərin idarə olunmasında riskdən qaçmaq üsulundan istifadə edərkən aşağıdakı addımlar atılmalıdır: etibarsız tərəfdaşlardan imtina etmək; təminat axtarmaq; təsərrüfat risklərini sığorta etmək; riskli layihələrdən qaçmaq.

Riskin ləğv edilməsi məqsədilə isə riskli layihələri yerinə yetirmək üçün xüsusi bölmə yaradıla bilər.

Riski seyrəltmək (dissipasiya) üçün isə çoxnövlü fəaliyyət və təsərrüfat zonalarına keçmək; satış və alış yerlərinin sayını artırmaq; investisiyanı şaxələndirmək; məsuliyyəti istehsal komandaları arasında bölüşdürmək; riski vaxta görə paylaşdırmaq lazımdır.

Riski kompensasiya etmək üçün sosial-iqtisadi və hüquqi-normativ mühitin monitorinqi, xarici şəraitin və fəaliyyətin planlaşdırılması, ehtiyat sistemlərinin yaradılması, fəaliyyətin strateji planlaşdırılması, məqsədyönlü aktiv marketinq planının hazırlanması nəzərdə tutula bilər.

Nəzəri və təcrübi baxımdan sübut olunmuşdur ki, riskləri layiqincə idarə etmək istəyən hər bir müəssisə, o cümlədən "Etilen-Polietilen" zavodu, bu qaydalara əməl etməlidir: sərəncamında olan kapitaldan artıq risk etmək olmaz; riskin nəticələri haqqında fikirləşmək lazımdır; azdan ötrü çox ilə risk etməzlər; müsbət qərar tam əminlik olduqda qəbul edilə bilər, əks təqdirdə mənfi qərar qəbul edilməlidir; heç vaxt düşünmək olmaz ki, bu yeganə yoldur.

Fikrimizcə, yuxarıda qeyd edilən istiqamətlərdə tədbirlərin həyata keçirilməsi "Etilen-Polietilen" zavodunda risklərin idarə edilməsinin təkmilləşdirilməsinə imkan verərdi.

## Nəticə

1. Neft-kimya məhsullarının satış bazarlarının istənilən məhsullarla dolu olduğu müasir şəraitdə istehsal-təsərrüfat-satış fəaliyyəti ilə məşğul olan hər bir müəssisə müəyyən risklərlə qarşılaşır. Belə vəziyyətdə təsərrüfat-istehsal-satış fəaliyyətinin

nəticələrini qabaqcadan görmək və optimal qərarlar qəbul etmək olduqca çətindir. Ona görə də, bazar münasibətləri şəraitində fəaliyyət göstərən hər bir müəssisə qarşılaşacağı riskləri proqnozlaşdırmalı və idarə etməlidir.

2. Riskləri tamamilə aradan qaldırmaq mümkün deyil, lakin idarə etmək və aşağı salmaq mümkündür.


**Ədəbiyyat siyahısı**

1. *Kazımlı X.H., Quliyev İ.* İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi: dərs vəsaiti. – Bakı: İqtisad Universiteti, 2011, 187 s.
2. *Аббасов А.М., Кулиев Т.А.* Экономика в условиях неопределенности. – Баку: Нафта-Пресс, 2002, 107 с.
3. *Гранатуров В.М.* Экономический риск: сущность, методы измерения, пути снижения: учебное пособие. – М.: Дело и Сервис, 2010, 207 с.
4. *Качалов Р.М.* Управление хозяйственным риском. – М.: Наука, 2002, 191 с.
5. *"Etilen-Polietilen"* zavodunun məlumatları.

**References**

1. *Kazimly Kh.N., Guliev I.* Igtisadi risklerin giymetlendirilmesi ve idare edilmesi: ders vesaiti. – Baki, Igtisad Universiteti, 2011, 187 s.
2. *Abbasov A.M., Kuliev T.A.* Ekonomika v usloviyakh neopredelennosti. – Baku: Nafta-Press, 2002, 107 s.
3. *Granaturov V.M.* Ekonomicheskiy risk: suchshnost´, metody izmerenia, puti snizhenia: uchebnoe posobie. – M: Delo i Servis, 2010, 207 s.
4. *Kachalov P.M.* Upravlenie khozyaistvennym riskom. – M: Nauka, 2002, 191 s.
5. *"Etilen-Polietilen"* zavodunun melumatlary.